Oktyabrın 7-dən 11-dək Təhsil Nazirliyi və UNİSEF-in birgə təşəbbüsü ilə Erkən uşaqlıq dövrünün inkişafı üzrə “Diplomat” oteldə 5 günlük seminar keçirilib.

Məqsəd Erkən uşaqlıq dövrünün inkişafı üzrə Milli Standartların hazırlanması istiqamətində valideynlərin maarifləndirilməsi, müəllimlərin təlimi, qeyd olunan iş üzrə proqramların dəstəklənməsindən ibarət olub.

UNİSEF-in beynəlxalq məsləhətçisi Maya Xerxeulidze seminara rəhbərlik edib. Seminarda təhsil və səhiyyə nazirliklərinin əməkdaşları, UNESCO və QHT- in nümayəndələri, şəhər və kənd rayonları üzrə təhsil işçiləri, eyni zamanda icma nümayəndələri iştirak edib. Seminarda ekspert, müəllim və valideynlərdən ibarət 20 nəfərlik işçi qrupunun yaradılması planlaşdırılıb.